

Nigar Pirimova
teatrşünas

# "Üç məkan" II Şəki Beynəlxalq Teatr Festivalı davam edir



Bu il artıq bir neçə festivala ev sahibliyi edən qədim Şəki şəhərində növbəti dəfə II Beynəlxalq Teatr festivalı keçirilir. İlk dəfə 2014-cü ilin payızında keçirilən festival bu il sentyabrın 15-24-ü arasında baş tutacaq. "Üç məkan" II Şəki Beynəlxalq Teatr Festivalının bu dəfəki özəlliyi onun daha geniş miqyasda keçirilməsidir. Belə ki, adından da göründüyü kimi, "Üç məkan" adlanan festival eyni vaxtda respublikamızın üç şəhərində - Şəki, Mingəçevir və Bakıda davam edir. Səbəb isə həm tamaşaların sayının çoxluğu, həm də teatr sənətinin daha geniş tamaşaçı kütləsi arasında təbliğidir. Gələcəkdə festivalın üç məkanda deyil, hətta daha çox məkanda keçirilməsi də nəzərdə tutulur.



"Üç məkan" II Şəki Beynəlxalq Teatr Festivalının açılışı sentyabrın 15-də Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrında oldu. "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı çərçivəsində Mədəniyyət və Turizm Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə keçirilən festivalda bu il ölkəmizlə yanaşı, Türkiyə, Rusiya, İran Gürcüstan, Ukrayna və Birləşmiş Ərəb Əmirliklərinin teatr kollektivləri də iştirak edirlər. Azərbaycanı isə bu festivalda Dövlət Akademik Milli Dram Teatrı, Dövlət Kukla Teatrı, Dövlət Rus Dram Teatrı, həmçinin Şəki və Gəncə Dövlət Dram Teatrları təmsil edir.



Festivalın açılış mərasimində tədbirin təşkilatçı qurumlarının rəhbərləri, TÜRKSOY-un təmsilçiləri, tanınmış teatr və incəsənət xadimləri, qonaqlar, eləcə də şəkili teatrsevərlər iştirak etdilər. Mərasimdən öncə iştirakçılar teatrın foyesində rəsm əsərlərindən ibarət, həmçinin teatr sənəti ilə bağlı sərgi ilə tanış oldular.

Açılışda Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək əvvəla belə bir teatr bayramının keçirilməsində göstərdikləri dəstəyə görə Mədəniyyət və Turiz Nazirliyinin rəhbərliyinə həm öz, həm də teatrsevərlər adından təşəkkürünü bildirdi. Həmçinin Elxan Usubov onu da diqqətə çatdırdı ki, TÜRKSOY tərəfindən 2016-cı ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilən Şəkidə il boyunca silsilə tədbirlər keçirilib. Daha sonra Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyev çıxış edərək, 144 illik tarixi olan Azərbaycan teatrının keçdiyi maraqlı, keşməkeşli, şərəfli yola qısa nəzər saldı, son illər milli teatrımızın qazandığı uğurlardan sohbət açdı. Sonda nazir bu tədbirin beynəlxalq marağa da səbəb olduğunu qeyd edərək vurğuladı ki, festival müddətində teatrsevərlərə 12 tamaşa təqdim olunacaq. Bu tamaşaların 8-i Şəkidə, 3-ü Mingəçevirdə, sonuncu bir tamaşa isə Bakıda göstəriləcək.

Açılışın həmən ardınca Akademik Milli Dram Teatrının kollektivinin təqdimatında festivalın ilk tamaşasını - Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri təqdim olundu. Teatrın bədii rəhbəri və direktoru, xalq artisti Azər Paşa Nemətovun quruluş verdiyi tamaşada Şeyx Nəsrullahı Nurəddin Mehdixanlı, Kefli İsgəndəri Anar Heybətov, digər rollarda xalq artistləri Laləzər Mustafayeva, Hacı İsmayılov, Rafiq Əzimov, əməkdar artistlər Sabir Məmmədov, Kazim Abdullayev, Elxan Quliyev, Aslan Şirinov və başqaları ifa etdi.

Tamaşadan sonra teatrın kollektivinə Mədəniyyət və Turizm Nazirliyi və Şəki Şəhər İcra Hakimiyyəti adından hədiyyə təqdim olundu.

Festivalın builki repertuarı belədir :

15 sentyabr - Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Azərbaycan) - Cəlil Məmmədquluzadə "Ölülər"

16 senyabr - Əl Əhli Dubay Teatrı (Birləşmiş Ərəb Əmirlikləri) - B.Abdullah "Mirvari günlər"

16 sentyabr - "Neğab Teatrı" (İran İslam Respublikası) - X.Təqiani Pur "Kütləvi xoşbəxtlik" (Mingəçevir Dövlət Dram Teatrı)

17 sentyabr - " Prekrasnıye tsvetı" Teatrı (Uktayna) - İ.Klyuçnik "Piy"

18 sentyabr - S.Axmeteli adına Tblisi Dövlət Dram Teatrı (Gürcüstan) - V.Pşavela " Ev yiyəsi və qonaq"

18 sentyabr - Gəncə Dövlət Dram Teatrı (Azərbaycan) - C.Məmmədquluzadə "Dəli yığıncağı" (Mingəçevir Dövlət Dram Teatrı)

19 sentyabr - Moskva "Trikster" Teatrı (Rusiya) - B.Paskal, V.İqnatov "Bədən hissələri"

20 sentyabr - N.Dumbadze adına Professional Dövlət Gənclər Teatrı (Gürcüstan) - C.Rossini "Sevilya bərbəri"

20 sentyabr - Azərbaycan Dövlət Rus Dram Teatrı (Azərbaycan) - Nizami Gəncəvi "Yeddi gözəl" (Mingəçevir Dövlət Dram Teatrı)

21 sentyabr - Azərbaycan Dövlət Kukla Teatrı (Azərbaycan) - Q.Məsimov "Zəng"

22 sentyabr - Şəki Dövlət Dram Teatrı (Azərbaycan) - S.Vurğun "Vaqif"

22:23 sentyabr - İstanbul Bələdiyyəsi Şəhər Teatrı - Elçin "Şekspir" (Azərbaycan Dövlət Musiqili Teatrı)

Mövzunu davam etdirəcəyik.

